Bakının yuxarı məhəllərində evlər əsasən birmərtəbəli, nadir hallarda üçmərtəbəli idi. Lakin mərkəzi küçələrdə kifayət qədər üçmərtəbəli binalar da var idi ki, bunların əksəriyyəti Bakının müsəlman əhalisini savadlandırmaqdan, gözlərini açmaqdan ötrü, əsasən tədris ocaqları adıyla müsəlman xeyriyyəçilər Hacı Zeynəlabidin Tağıyev, Ağamusa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Əjdər Aşurbəyli, Nabat xanım Aşurbəyli, Teymur Aşurbəyli, İsabəy Aşurbəyli, Hacı Hacıağa, Hacı Əliabbas və başqaları tərəfindən inşa edilmişdir. Lakin çar məmurları həyasızcasına bu binaların bir qismini zəbt etmiş, özləriçün cürbəcür idarələrə, banklara çevirmişdilər. Bu binalardan biri də təkcə Çar Rusiyası ərazisində, Qafqazda deyil, bütün Şərq aləmində və Avropada ingilis iqtisadçı Adam Smitə bərabər tutulan, misilsiz xeyriyyəçi, Qafqaz müsəlmanlarının "Elatası" adlandırdıqları Hacı Zeynəlabdin Tağıyev tərədindən 1884-cü ildə müsəlman yeniyetmə oğlanların təhsil alması üçün "Rüşdiyyə məktəbi" kimi inşa etdirilmişdi. Lakin müsəlman uşaqların təhsil almasından bərk qorxan çar məmurları bir sıra rüşdiyyə məktəblərini bağladıqları kimi iki il əvvəl bu məktəbi də cürbəcür bəhanələrlə bağlamış, eyni zamanda "Duma" binasına çevirmişdilər.

Duma 1906-cı ilin mayından 1917-ci ilin oktyabrına qədər Çar Rusiyasının bir orqanı kimi fəaliyyət göstərmişdi. Lakin 1917-ci ildə Rusiyanın paytaxtı Peterburq şəhərində V.İ.Leninin başçılığı ilə Oktyabr inqilabı baş verəndən, daha doğrusu 300 il hakimiyyətdə olmuş Romanovlar sülaləsinin sonuncu nümayəndəsi, daha doğrusu Rus imperiyasının sonuncu çarı Nikolay devriləndən sonra, 17-ci əsrin axırlarından Rusiyanın yarımüstəmləkəsinə çevrilmiş Bakıda da Leninin tərəfdaşları hakimiyyəti ələ aldılar və bu minvalla da çar inzibati müəssələri ləğv edildiyindən, Çar Rusiyası tərəfindən yaradılmış Duma da iflasa uğramışdı və bütün səlahiyyət Bakı Sovetinə keçmişdi. Bakı İcrayyə Komitəsinin sədri isə kommunist Alyoşa Caparidze idi. Amma bununla belə Bakı Soveti şəhərdə tam hakimiyyət sahibi deyildi. Həm də bolşeviklər Bakıda hakimiyyəti təzəcə əldə etdiklərindən, özlərini menşeviklərdən daha demokratik, daha humanist göstərməkdən ötrü Dumanı əvəz eləyən Bakı Sovetinə seçgilər keçirərkən, qeyri-bolşeviklərdən də üzvlərin seçilməsinə imkan vermişdilər.

Doktor Nəriman hələ 1915-ci ildən, yəni "Sarıqamış"da Çar Rusiyası əsgərlərinə əsir düşən on minə qədər türk əsiirinin Nargin adasına gətirilməsindən və orda onlara dəhşətli işgəncələr verilməsindən xəbəri var idi. İgid qadın Sona xanımın həmin əsirlərin bir qismini adadan qaçırtmasından və buna görə də çar məmurları tərəfindən həbs olunub vəhşicəsinə qətlə yetirilməsindən, El atası Hacı Zeynəlabdin Tağıyevin qızlarının, Murtuza Muxtarovun zövcəsi Liza xanımın adadan qaçırılmış türk əsirləri evlərində gizlədib onlara xüsusi qayğı göstərmələrindən, eyni zamanda Bakı qoçularının ən "qabadayı"larından olan "Dağ Aslanı" ləqəbli Dağlı Musanın altı türk əsirini pendir çəlləklərinin içində qaçırtmaq istərkən, çar məmurları bundan xəbər tutmasından, Dağlı Musanın təkbaşına on beş məmuru öldürməsindən və əsirləri qaçırtmasını da eşitmişdi. Odur ki, 148 bolşevik, 85 eser, 36 daşnak, 18 müsavatçı, 13 menşevikdən ibarət olan Bakı Sovetinin 1917-ci il dekabrın 12-də baş verən ilk iclasından bir neçə gün qabaq Nargin adasındakı türk əsirlərinin acınacaqlı vəziyyəti haqqında məsələ qaldırmış, əsirlərin halını yoxlamaq və əməli tədbir görmək üçün altı nəfərdən ibarət komissiya yaradılmasına nail olmuş, özü isə bu komissiyanın sədri seçilmişdi. İndi isə, yəni dekabrın 12-də, Bakı Sovetinin ilk iclasında, ilk çıxış üçün söz də ona verilmişdi və və xeyli yanıqlı, eyni zamanda odlu-alovlu bir şəkildə sanki Nargin adasında gördüklərinin rəsmini çəkirdi:

-Kaş mən bu cəzirəyə getməyəydim. Kaş bir dəri, bir sümük bədənləri sifətsiz gözləri ah-zar edən insanları görməyəydim. Kaş "əfəndim su", "əfəndim yemək", "əfəndim paltar",- sözlərini eşitməyəydim. Kaş çılpaq dodaqlarlı, soyuqdan titrəyən üzləri, bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş xəstəxanada başları kərpic üstə başları can verən igidlərə rast gəlməyəydim. Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır. Tuifmi, vəbamı və ya qeyri-sirayət edici mərəzmi, bunları cəzirəyə qurban edəcəkdir. Yox-yox, aclıq syusuzluq və soyuq, müsəlmanlar əfəndim su deyib gözlərimizə baxdıqda, guya demək istəyirlər, siz insanmısızız, insanlığa dair qanunlarınız varmı?! Siz millət balasınızmı?! Zavallı millət balalarına cavabınız nədir?! Sizə baxan, sizi mühaklimeyə çağaıran bu gözlərdə, siz bu sözləri oxuyursunuz. Oxuyub da ürəyiniz sıxılır, gözlərimniz ixtiyarsız yaşarır. Mən ağladım, türlü-türlü xəstələrin ah-naləsini eşidərək, onların axır dəqiqələrini öyrənmiş halda, tab gətirə bilməyib ixtuiyarsız ağladım. Ağlamamaq mümkündürmü?! Vaxtında onlar ata-ananın göz işığı, sonra uşaqlar pərəstarı və daha sonra vətən qəhrəmanı bir insan idi. İndi ilanlar məsgəni olan susuz bir cəzirədə can verərkən, quru partlamış dilini çıxarıb deyir: "Əfəndim su, əfəndim yemək". İndi mən də qulaqları eşidənlərə vicdanı oyanmışlara, üzünü tutub da o zavallı cəzirə əsirlıərinin sözlərini təkrar edirəm: " Əfəndim su, əfəndim yemək, əfəndim paltar". Bu göz yaşı tökdürən cəzirə sizi gözləyir, sizə ümid bağlayır. Əmin olunuz, siz də mənim gördsüyümü görsəydiniz və bir şey əlinizdən gəlməməyini fikirləşsəydiniz, siz də mənim kimi deyərdz, kaş bu cəzirəyə getməyəydim.".



# DOKTOR NƏRİMAN

"Cəzirənin halı hər tərəfdən fənadır. Burada evlər adamlar üçün tikilməyib. Bu evlər qaranlıq, soyuq daxmalarardan ibarətdir. Onların soyuqluğuna səbəb nəinki yandırılmamışdır, xeyir burda heç vaxt yandırmazlar, çünki odun yoxdsur. Bu daxmaların soyulıuğuna səbəb taxtaların arasında olan dəliklər, damların üstündəki şüşəsiz pəncərələrdir. Mən sağlamlıar üçşün bişən şorbanı gördüm. İtini sevən kişi, bunu itinə verməz. Su da burda çox vaxt tapılmır. Burda insanlıar susuzluqdan can verirlər. Zavallı əsirlərim hallarını daha aşkar nəzərə gətirmək üçün burda bir neçə rəqəmlər səylənək istərdim. Hər gün 40-45 adam ölməkdədir. Nə isə bu cəzirə bir məzardır. Bu məzarın kənarındfa hazır min adam növbədə, yeddi min sağlam adam da bu növbəyə haqırlaşır. Gərəkdir daş ürəkli olasan ki, bu vicdansızlığa davam edəsən. Acıqlı, hirsli halda insan insan barəsində də bu vicdansızlığa qərar versə bəlkə də təbii olar. Fəqət mürür ilə hər saat, hər gün, həftələr, aylar illərlə bu hərəkətdə bulunmaq insanlıq hərəkəti deyildir. İnsan balası ilə bu tövr rəftar nəinki azad Rusiada gərəkdir görünməsin, hətta vəhşilər arasında görünməyiubdir. Yoldaşlar! O, əsirlər Nargin adasına qəddar rejim əsgərləri tərəfindən iki il yarım bundan qabaq gətirilib". O zaman ora on minə qədər əsir gətirilmiş. Lakin onların artıq səkkiz mindən çoxu, vəhşilərin onlara verdiyi işgəncələrdən, acından, cürbəcür yoluxucu xəstəliklərdən, susuzluqdan ölmüşlər. İndi hal-hazırda orda iki minə yaxın əsir qalıb. Lakin onların da hamısı olduqca ağır vəziyyətdədir.

Yoldaşlar! Onlara təcili yardım etmək, onları tez bir zamanda adadan münasib bir yerə gətirmək və bundan ötrü xüsusi insanlar, gəmilər, tibb işçiləri, tibbi ləvazimatlar, eyni zamanda bu məqsəd üçün əhalidən kömək yığmaq vacibdir. Mən əminəm ki, müsəlmanların arasında imkanlı insanlar bu işdə əllərindən gələni əsirgəməyəcəklər. Mən təklif edirəm ki, yardım komitəısi yaradılsın və bu komitə dərhal fəaliyyətə başlayıb o bədbəxt insanların ölümün pəncəsindən xilas olmağı üçün vargücü ilə çalışsın. Yoldaşlar! Kim mənim təklifimə səs verirsə xahiş edirəm əlini qaldırsın!

Doktor Nəriman təkcə "əfəndim su", "əfəndim yemək", əfəndim paltar", sözlərindən başqa nitqini rus dilində eləmişdi və rus dilini doğma dili qədər mükəmməl bildiyi üçün onu Bakı Sovetinin cürbəcür partiyalardan olan üzvülərinin hamısı çox gözəl başa düşmüşdü.

Odur ki, salonda bir müddət sukut hökm sürəndən sonra 36 daşnak və guya fəhlələrin, dənizçilərin və tələbələrin havadarı kimi fəaliyyət göstərən, əsasən isə ermənuilərdən ibarət olan "sağ eserlər"-dən əlindən başqa bütün əllər yuxarı qalxdı. Dünyanın ən hiyləgər insanları olan ermənilər isə sanki heç bir şey anlamayıbmış kimi gah tavana, gah da divarlara baxa-baxa əllərini qaldırmadılar. Bu səbəbdən də həm Bakı Soveti İcrayyə Komitəsinin, həm də iclasın sədri Alyoşa Caparidze dərindən köksünü ötürüb üzünü Bakıdakı daşnakların lideri Aramyana tutdu:

-Cənab Aramyan, niyə sizin və sizin partiyanın üzvülərinin əlləri yuxarı qalxmır? Məgər siz, imperiyanın vəhşi məmurları tərəfindən insanlığa sığmayan üsullarla məşəqqətlərə düçar olmuş o bədbəxtlərin ölümün pəncəsindən qurtarmağını istəmirsizmi?

Aramyan burnunu çəkdi:

-O, türk əsgərləri iki il bundan qabaq Anadoluda, əsasən də Vanda dinc erməni əhalisinə qarşı qətliyam törədən həmin əsgərlərdir. Odur ki, biz doktor Nərimanın təklifinə səs verə bilmərik.

Doktor Nəriman qəzəblənsə də, kifayət qədər təmkinli adam idi, odur ki, qəzəbini boğub bir qədər uca səslə dilləndi:

- İki il bundan qabaq Andronik Ozanyan on minlik daşnak ordusu ilə Naxçıvanda, Zəngəzurda, İrəvan yaxınlığında 35 mindən çox silahsız, dinc müsəlman əhalini qundağdakı uşağdan yüz yaşlı qocaya qədər ən yırtıcı üsullarla qətlə yetirib. Nədənsə bütün dünya da buna susur, siz daşnaklar və sağ eserlər isə özünüzü elə aparırsız ki, guya belə hadisə tamamilə olmayıb. O ki, qaldı Vandakı hadisəyə, bu barədə də dedikləriniz həqiqətə uyğun deyil, çünki məhz elə Anadoluda həmin ərəfədə Andronikin təpədən-dırnağa qədər silahlanmçış qımçaq dəstələri 600 müsəlman köyünü yandırıb və 40 minə qədər insanı diri-diri odun içinə atıblar. Dünən komissiya heyətinin üzvülərilə birlikdə olduğum adada isə erməni həkimlər yüzlərlə əsirin gözlərində əməliyyat edib kor ediblər.

Doktor Nərimanın Aramyana verdiyi cavabdan sonra 36 daşnak və təxminən 40 sağ ersermusiqidən başı çıxmayan, daha doğrusu xaric notlarla çalan orkestr kimi insanın əsəblərini pozan iyrənc səslər çıxarmağa başladılar.

Doktor Nəriman isə onların hürüşməsinə əhəmiyyət verməyib üzünü sağ eserlərin lideri Sato Saakyana tutdu:

-Saakyan, siz ki, öz mətbu orqanlarınız olan "Molot", Dllya naroda", "Trud", "Volna""Trudavpy qolos", "Leqal" dərgilərində millətindən asılı olmayaraq zülmə düçar olmuş insanların qayğısına qalmaq, onlara yardım etmək barədə danışırsız. Bəs niyə bu çox vacib təklifə səs vermirsiz?

Saakyan bir qədər susandan sonra dodağını büzdü: - Çox qəribədir Nərimanov. Siz bolşeviksiz. Osmanlılar isə bolşeviklərin ən qatı düşmənləridirlər. Şəxsən mən bundan belə nəticə çıxardıram ki, siz millətçisiz Nərimanov, özü dsə qatı millətçi. Ona görə də o başkəsən türklərin qayğısına belə qalırsız.

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 5-ci səhifədə)*

Çox qəribədi Nərimanov, Osmanlı dövləti özü bu əsirlərinə sahib çıxmaq istəmir, onlara görə Rusiya imperiyasına heç müraciət də eləmir, amma siz o əsirlərin dərdinə yanırsız. Bir də ki, hamı bilir ki, bizim firqə, istər sağ eserlər olsun, istərsə də sol eserlər, fərqi yoxdur, Panislamizmin əlehyinəyik. Sizin isə çıxışınız panislamizim üzərində köklənib.

Nərimanov sakit təbiətli adam idi, lakin Saakyanın sinir pozan sözləri onu az da olsa özündən çıxartdı, odur ki, bir qədər hiddətlə dilləndi:

-Saakyan, unutmayın ki, Bakı şəhərinin iki mindən yuxarı yaşı var və yerli əhalisi artıq min ildən yuxarıdır ki, İslam dinini qəbul eləyib. Özünüz mən də yaxşı bilirsiz ki, yerli müsəlmanlar çox humanist, mütərəqqi, qayğıkeş insanlardır. Onlar başqa dinlərdən olan insanlara heyrətamiz bir ehtiram göstərirlər. Bir özünüzə, bir firqə yoldaşlarınıza yaxşı-yaxşı baxın! Üz-gözünüzdən olduqca azad, sərbəst, rahat yaşadığınız açıq-aşkar görünür. İndiyə qədər nə Bakıda, nə də cənubi Qafqazın başqa bölgələrində yaşayan müsəlmanlar tərəfindən kiminsə ya xrisian, ya yəhudi olduğuna görə öldürüldüyünün kimsə şahidi olmayıb və ola da bilməz. Amma siz öz jurnallarınızda, ya publisistik çıxışlarınızda elə hey "İslamaxobiya" deyib durursuz. Əgər bu bölgədə sizin uydurduğunuz kimi islamaxobiya olsaydı, onda siz nəinki bu salonda olmazdız, zatən yaşamaq haqqından məhrum edilərdiz.

Saakyan iyrənc-iyrənc güldü: -Sizin müsəlmanlar Çar Rusiyasından qorxurdular, ona görə qeyri müsəlmanları öldürmürdülər.

Nərimanov köksünü ötürdü: - Siz yenə uydurursuz Saakyan! Çar Rusiyası suqut edib. Elə isə müsəlmanlar indi kimdən qorxurlar.

Saakyan yenə nəsə demək istədi, lakin Caparidze onun sözünü ağzında qoydu: - Yetər Saakyan! Siz haqqı görə-görə inkar edirsiz və nəinki inkar edirsiz, ona ləkə yaxırsız. Mən gürcüyəm. Bakıda da kifayət qədər gürcü ya-

# DOKTOR NƏRİMAN

şayır. Onların arasında mənim yaxın qohumlarım da var. Hələ indiyə qədər bir gürcünün, vəzifəsindən, əqidəsindən, firqəsindən, tutduğu mövqeydən asılı olmayaraq müsəlmanlar tərəfindən təzyiqə məruz qaldığını nə görmüşəm, nə də eşitmişəm. Əksinə, yalnız xoş sözlər eşitmişəm. Onu da deyim ki, müsəlmanlarla dostluq eləyən gürcü də nə qədər istəsən var. Siz bu cəfəngiyyatlarınızı özünüzçün saxlayın! Onsuz da doktor Nərimanovun təklifi səs çoxluğu ilə qüvvəyə mindi. Odur ki, Nargin adasındakı əsirlərə yardım proqramı hazırlanmalı, eyni zamanda doktor Nərimanovun başçılığı ilə yeni komissiya üzvüləri əsirləri düşdükləri bəladan qurtarmaq üçün işə başlamalıdır. .

Doktor Nəriman, vaxtilə Məhəmməd Əmin Rəsulzadə tərəfindən yaradılan "Hümmət" təşkilatının adını daşıyan "Hümmət" qəzetində də Nargin adasındakı acınacaqlı vəziyyət haqqında olduqca ətraflı məlumat vermişdi və doktorun Bakı Sovetinin iclasındakı çıxışından daha çox onun qəzetdəki çıxışı Bakının müsəlman əhalisi arasında səs-küyə səbəb olmuşdu.

Qadınlar, gəlinlər, qızlar əsirlərin halına ağlayır, kişilər qəzəbdən özlərinə yer tapa bilmir, gecə-gündüz müsəlmanlara qarşı zəhər püskürən şeytanruhlu kafirləri lənətləyir, din xadimləri müsəlmanların qanına yerikləyən çar kölələrini və arxalarının çox güclü olduğu üçün gün-gündən quduzlaşan ermənilərə bəd dualar edirdilər.

Bir sözlə hər daşı, hər kərpici "Ləİlahəilləllah, Muhəmmədən Rəsulullah" deyən qədimdən qədim Bakı təlatümə gəlmişdi. Nərimanovun çıxışının səs-sədası get-gedə daha çox yayılmaqda idi və Bakı şəhərinin 90 faizi yazıb-oxumağı bacarmayan müsəlman əhalisi həqiqəti öyrənmək üçün altı yüz il öncə şirin sulu quyu qazımaq üçün Bakının Məhəmmədi kəndindən gəlib İçərişəhərdən təxminən beş kilometr aralıda yerləşən bu ərazidə quyu qazarkən bir övliyanın qəbrini aşəkar etdiyindən, həmin məkanda təqva sahibləri tərəfindən övliyanın şərəfinə türbəı ucaldılar, 19-cu əsrin axırlarında isə mömünə bir qadın Nabat xanım Aşurbəyli tərəfindən inşa edilən Bakı şəhərionin ən böyük və ən yaraşıqlı məscidi "Təzəpir" məscidinə axışır, orda ya münafiq yox, əməlisaleh din xadimlərindən, ya da müsəlman ziyalılardan məsələnin nə yerdə olduğunu öyrənirdilər.

"Təzəpir" məscidinin həyətinə dörd min adam yığılmışdı, onlar səbirsizliklə məscidin axundu Ağa Əlizadənin fətvasını gözəyirdilər. Bir qədər sonra axund göründü, Hacı Zeynalabdin Tağıyev və KNəriman Nərimanov o-nun yanında idilər. Ağa Əlizadə müqəddəs Qurani-Kərimdən bir sıra mübarək ayələr oxuyub Narindəki türk əsirlərə hər kəsin gücü çatdığı qədər yardım göstərməyi tvsiyə edərək fətva verdi. Axunddan sonra çıxış edən Hacı türk əsirlərə nə qədər lazımsa yardım edəcəyini vəd elədi. Hacıdan sonra çıxış eləyən Nərimanov isə çıxışına başlayıb,-"Türklər bizim qardaşımızdır, dar gündə biz onlara, onlar da bizə kömək eləməlidilər",-sözləri ilə bitirdi. Bununla da türk əsirlərə Bakının müsəlman əhalisi, hər kəs imkanı daxilində həm cürə yardım elədi. Bütün bunlar isə nəticəsiz qalmadı. Azərbaycanlıların yardımı ilə saalıb ayağa qalxan türk döyüşçülər 1918-ci ildə knüllü olaraq "Qafqaz İslam Ordusu" tərkibində Azərbaycana gələrək vətənimizi, torpağımızı daşnak-bolşevik neo-faşist hərbi birləşmələrinin, erməni emissarlardan ibarət "Sentrakaspi Diktaturası Hökümət" hərbiçilərin xalqımıza qarşı törətdiyi qətliyamların qisasını alıb Azərbaycanı kafir tapdağından təmizlədi, eyni zamanda doğma Bakımızı Böyük Britaniya orusunun işğalından qurtardı.



***Hüseyn VÜQAROĞLU ( ƏHMƏDLİ)***
***Bakı şəhəri Səbail rayon***
***Badamdar qəsəbə bələdiyyəsinin***
***baş mütəxəssisi,***
***Analoq.az saytının müxbiri***